# Milli Məclisin komitə iclaslarında

Yanvarın 19-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin 2023-cü il yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Əli Hüseynli bildirib ki, gündəliyə 15 məsələ daxil edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri diqqətə çatdırıb ki, birinci məsələ Milli Məclisin 2022-ci ilin payız sessiyası dövründə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində görülən işlər barədə hesabat, ikinci məsələ isə komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsidir. 2022-ci ilin payız sessiyasında görülən işlər barədə hesabata əsasən, komitənin bu müddətdə 25 iclası keçirilib, 214 məsələyə baxılıb. Komitədə 65 qanun layihəsi üç oxunuşda, 7 qanun layihəsi bir oxunuşda  müzakirə edilib.

Hesabat dövründə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olmuş 307 ərizə və məktub, digər müxtəlif xarakterli sənədlərə, elektron poçt vasitəsilə daxil olmuş məktublara komitədə baxılıb, müvafiq tədbirlər görülüb. Komitə tərəfindən müxtəlif məzmunlu 194 ərizə, müraciət və sənədə baxılaraq aidiyyəti təşkilatlara göndərilib.

2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsinə əsasən, komitədə qanunvericilik təşəbbüsü qaydasında təqdim ediləcək qanun layihələrinə baxılması nəzərdə tutulub.

2022-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabat qənaətbəxş hesab edilib, komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi məqbul sayılıb.

Əli Hüseynli 3-cü məsələ - Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə fikirlərini açıqlayaraq təklif olunan düzəlişlərin əhəmiyyətli olduğunu, sənədin istehlakçıların hüquqlarının müdafiəsinə xidmət edəcəyini bildirib.

Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov qeyd edib ki, qanun layihəsi mülki hüququn institutu olaraq borc müqaviləsi və onun tərkib hissəsi olan kredit müqaviləsi üzrə münasibətlərin mülki qanunvericilik çərçivəsində tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi, bu sahədə borcalanların (istehlak kreditinə münasibətdə isə istehlakçıların) hüquqlarının qorunmasının təmin edilməsi, habelə Məcəllənin əqdlərlə və öhdəliklərlə bağlı bəzi normalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qeyd olunub ki, əqd müvafiq tələblərə əməl etməklə elektron informasiya sistemlərinin köməyi ilə bağlanırsa bu halda o yazılı əqd hesab oluna biləcək. Bu isə tərəflərin əqdi elektron resurslardan istifadə etməklə bağlamaq imkanını artırır, habelə bu cür bağlanmış əqdlər üzrə yaranan mübahisələrin daha çevik həllinə, tərəflərin hüquqlarının daha etibarlı qorunmasına imkan yaranır.

Komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Azay Quliyev, Bəhruz Məhərrəmov  sənədin vətəndaşların maraqlarının qorunması baxımından əhəmiyyətli olduğunu bildiriblər, bəzi qeyd və təkliflərini diqqətə çatdırıblar. Komitə sədri Əli Hüseynli səsləndirilən fikirlərə münasibət bildirib.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Komitə sədri Əli Hüseynli bildirib ki, hazırda "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" icra olunmaqdadır. Strategiyaya əsasən dövlət qulluğu sahəsində bir sıra islahatların aparılması nəzərdə tutulub. Qeyd olunub ki, təqdim edilən layihədə anlayışların dəqiqləşdirilməsi, habelə dövlət qulluqçularının potensialından səmərəli istifadə, onların xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə dövlət qulluqçularının rotasiyasının həyata keçirilməsi ilə bağlı qaydalar öz əksini tapıb.

"Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitə sədri Əli Hüseynli diqqətə çatdırıb ki, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli Qanununun icrası ilə əlaqədar bir çox qanunlara uyğunlaşdırma xarakterli düzəlişlər nəzərdə tutulub. Komitənin iclasının gündəliyinə daxil edilən növbəti məsələlərdə bununla bağlı müvafiq dəyişikliklər təklif olunur.

O həmçinin qeyd edib ki, 5-ci məsələ olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsində isə "Media haqqında" qanuna uyğun olaraq bir sıra məsuliyyət növlərinin dəqiqləşdirilməsi də nəzərdə tutulub.

Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Kamalə Paşayeva İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və gündəliyin 6 - 15-ci məsələləri - Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəllədə, Şəhərsalma və Tikinti Məcəlləsində və Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, 2000-ci il 14 aprel tarixli 859-IQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında Əsasnamə"də, 2005-ci il 3 may tarixli 903-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsi"ndə və 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Müflisləşmə və iflas haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Mülki müdafiə haqqında", "Qrant haqqında", "Hidrometeorologiya fəaliyyəti haqqında" və "Uşaq hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin  və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Coğrafi obyektlərin adları haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Arıçılıq haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Fərdi məlumatlar haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" və "İnvestisiya fondları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Lotereyalar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ovçuluq haqqında", "Fövqəladə vəziyyət haqqında", "Mühasibat uçotu haqqında", "Kəşfiyyat və əkskəşfiyyat fəaliyyəti haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli Arxiv Fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Daxili qoşunların statusu haqqında", "Rəsmi statistika haqqında", "Həmkarlar ittifaqları haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə,"Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinin mahiyyəti barədə məlumat verib.

Komitənin sədr müavini Qüdrət Həsənquliyev, üzvləri Tahir Kərimli, Azay Quliyev təqdim olunan layihələr barədə öz fikirlərini, qeyd və təkliflərini bildiriblər. Medianın İnkişafı Agentliyinin Hüquq Xidmətinin rəhbəri Rəqsanə Kərimova səsləndirilən fikirlərə münasibət bildirib, bəzi məqamlara aydınlıq gətirib.

Yekunda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Yanvarın 19-da Milli Məclisin Regional məsələlər komitəsinin 2023-cü ilin yaz sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Siyavuş Novruzov parlamentin 2023-cü il yaz sessiyasında deputatlara uğurlar diləyib.

Komitə sədri 2022-ci ilin ölkəmiz üçün uğurlu keçdiyini bildirib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə keçən il Azərbaycanda sistemli islahatların davam etdirilməsi, idarəetmədə səmərəliliyin artırılması, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsi, milli maraqlarının qətiyyətlə qorunması, suverenliyin müdafiəsi kimi istiqamətlərdə əldə olunan nailiyyətləri vurğulayıb və 2023-cü ildə də bu nailiyyətlərin davamlı olacağına əminliyini bildirib.

Sonra Siyavuş Novruzov iclasın gündəliyi barədə məlumat verib. Bildirilib ki, iclasın gündəliyinə Milli Məclisin 2022-ci ilin payız sessiyası dövründə Regional  məsələlər komitəsində görülən işlər barədə hesabat və Milli Məclisin Regional  məsələlər komitəsinin 2023-cü ilin yaz sessiyası üçün iş planı və 4 qanun layihəsi daxil edilib.

Hesabatı təqdim edən komitə sədri payız sessiyası dövründə Regional məsələlər komitəsinin 4-ü onlayn olmaqla 6 iclasının keçirildiyini bildirib və iclaslarda baxılan məsələlər və qanun layihələri barədə məlumat verib. Diqqətə çatdırılıb ki, 2022-ci ilin payız sessiyası dövründə komitəyə vətəndaşlardan daxil olan 83 elektron, 24 kağız formada müraciətə baxılıb, araşdırılıb və müvafiq tədbirlər görülüb. Eyni zamanda hesabat dövründə komitə tərəfindən Milli Məclis Aparatında vətəndaşların qəbulu  keçirilib. Komitə sədri ümumilikdə bütün komitə üzvlərinə vətəndaşlardan daxil olmuş 1234 müraciətlə bağlı da məlumat verib. Qeyd olunub ki, Regional məsələlər komitəsi üzvləri sosial şəbəkələrdə, mediada, müxtəlif tədbirlərdə fəal iştirak ediblər, aktual ictimai-siyasi məsələlərlə bağlı öz mövqelərini bildiriblər. Eyni zamanda təmsil etdikləri ərazilərdə cəmiyyətin həssas qrupları, şəhid ailələri, qazilərin problemləri ilə yaxından maraqlanıblar.

Siyavuş Novruzov Regional məsələlər komitəsinin 2023-ci ilin yaz sessiyası üçün iş planı ilə bağlı diqqətə çatdırıb ki, növbəti sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, dinləmələrin keçirilməsi kimi məsələlər nəzərdə tutulub.

Sonra Siyavuş Novruzov gündəliyə daxil edilən qanun layihələri barədə məlumat verib. Bildirilib ki, gündəliyə daxil edilən məsələlərdə "kütləvi informasiya vasitələri", "kütləvi informasiya vasitələrində" kimi sözlərin "media subyektləri", "mediada" kimi sözlərlə əvəz edilməsi təklif olunur.

İclasda komitə üzvləri Cavid Osmanov, Kamran Bayramov, Səbinə Xasayeva, Məzahir Əfəndiyev, Tahir Rzayev müzakirə olunan məsələlərlə bağlı çıxış ediblər, fikirlərini və qeydlərini səsləndiriblər. Deputatlar həmçinin bələdiyyələrin fəaliyyəti, onların işinin səmərəliliyinin artırılması, regional idarəetmənin təkmilləşdirilməsi və digər aktual məsələlərlə bağlı fikirlərini bölüşüblər.

İclasda Milli Məclisin 2022-ci ilin payız sessiyası dövründə Regional  məsələlər komitəsində görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib. Gündəliyə daxil edilən qanun layihələri  Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Yanvarın 19-da Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. İclası açan komitə sədri Bəxtiyar Əliyev 20 Yanvar faciəsindən danışıb. Müstəqillik tariximizdə Ulu Öndər Heydər Əliyevin rolundan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan söz açıb.

20 Yanvar şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra komitə sədri Bəxtiyar Əliyev gündəliyə 3 məsələnin - Elm və təhsil komitəsinin 2022-ci ilin payız sessiyası ərzində fəaliyyəti barədə hesabatın, qarşıdakı sessiya üçün iş planının və bir qanun layihəsinin daxil edildiyini bildirib.

Komitə sədri 2022-ci ilin payız sessiyası ərzində komitədə görülən işlər barədə hesabatı təqdim edərək komitənin 11 iclasının keçirildiyini, iclaslarda 19 məsələnin müzakirə edildiyini deyib. Ötən sessiya dövründə komitədə baxılan qanun layihələri barədə məlumat verən komitə sədri bildirib ki, hesabat dövründə komitəyə daxil olan 156 müraciətə aidiyyəti üzrə baxılıb və müvafiq tədbirlər görülüb, komitə tərəfindən 16 vətəndaş qəbul edilib, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüşlər keçirilib, onların problemlərinin həllinə kömək göstərilib.

Komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planı ilə bağlı diqqətə çatdırılıb ki, iş planına qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, mövcud qanunlara ediləcək dəyişikliklərin müzakirəsi daxil edilib. Həmçinin komitəyə daxil olan təkliflərin təhlili və vətəndaşların müraciətləri ilə işin təşkili kimi məsələlər nəzərdə tutulub. O, iş planına "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanmasının daxil edildiyini qeyd edib.

İclasda müzakirəyə çıxarılan "Lotereyalar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ovçuluq haqqında", "Fövqəladə vəziyyət haqqında", "Mühasibat uçotu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı bildirilib ki, sənəd "Media haqqında" qanununun icrası ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır. Layihədə mətn boyu "kütləvi informasiya vasitələri", "kütləvi informasiya vasitəsi" kimi ifadələrin "media subyektləri", "media" ifadələri ilə əvəzləmək təklif olunub.

Elm və təhsil komitəsinin üzvləri İsa Həbibbəyli, Ceyhun Məmmədov, Etibar Əliyev və Kamilə Əliyeva çıxış edərək müzakirə edilən məsələlərlə bağlı fikirlərini bildiriblər.

Müzakirələrin sonunda Elm və təhsil komitəsinin 2022-ci il payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul sayılıb, komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planı təsdiq edilib, gündəlikdəki qanun layihəsi isə baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Yanvarın 19-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2023-cü il yaz sessiyasında ilk iclası keçirilib. Komitənin sədri Səməd Seyidov yeni sessiyanın başlaması münasibəti ilə komitə üzvlərini təbrik edib, onlara gələcək fəaliyyətlərində yeni nailiyyətlər arzulayıb. O diqqətə çatdırıb ki, iclasın gündəliyinə 5 məsələ daxil edilib.

Səməd Seyidov əvvəlcə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2022-ci ilin payız sessiyası ərzində gördüyü işlər barədə hesabatı və komitənin 2023-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsini təqdim edib. Bildirilib ki, 2022-ci ilin payız sessiyasında görülən işlərin hesabatına əsasən, komitənin bu müddətdə16 iclası keçirilib, 45 məsələ müzakirə edilib. Hesabat dövründə komitənin sədri və üzvləri xarici dövlətlərin və təşkilatların ölkəmizdəki səfirləri, nümayəndələri, ölkəmizdə səfərdə olan müxtəlif nümayəndə heyətləri ilə bir sıra görüşlər keçiriblər.

Ötən sessiya ərzində komitəyə ümumilikdə 1844 ərizə, məktub və şikayət daxil olub. Müraciətlərlə bağlı müvafiq tədbirlər görülüb, aidiyyəti təşkilat və idarələrə məktublar göndərilib. Komitə üzvləri tərəfindən vətəndaşların onlayn və fərdi qaydada qəbulu keçirilib.

Diqqətə çatdırılıb ki, 2023-ci ilin yaz sessiyası üçün iş planının layihəsinə əsasən komitədə  qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin müzakirəsi, beynəlxalq və dövlətlərarası müqavilələrin təsdiqi, icrası və ləğv edilməsi qaydalarına aid təqdim olunmuş sənədlərə dair rəyin verilməsi, parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyətin genişləndirilməsi və digər tədbirlər nəzərdə tutulub.

Komitə üzvləri Kamran Bayramov, Sahib Alıyev, Nəsib Məhəməliyev hesabat və iş planı barədə öz fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Komitənin 2022-ci ilin payız sessiyası ərzində fəaliyyəti qənaətbəxş hesab edilib, 2023-ci ilin yaz sessiyası üçün iş planının layihəsi müsbət qiymətləndirilib.

Sonra iclasda gündəlikdəki qanun layihələri müzakirə olunub. Komitə sədri əvvəlcə Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenası haqqında" 155 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Konvensiyada qeyd olunur ki, sənəd iqtisadi fəaliyyətin bütün sahələrinə tətbiq edilir. Konvensiyaya əsasən, əməyin təhlükəsizliyi, gigiyenası və istehsalat mühiti üzrə qanun və qaydaların tətbiq edilməsi adekvat və müvafiq təftiş sistemi ilə təmin olunur. Hüquqi öhdəliklərin yerinə yetirilməsində kömək göstərilməsi məqsədilə işəgötürənlər və işçilərin təlimatlandırılması üçün müvafiq tədbirlər görülür.

Sonra Səməd Seyidov "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Sənədə əsasən, "Media haqqında" qanunun icrası ilə əlaqədar olaraq adları çəkilən qanunlara uyğunlaşdırma xarakterli düzəlişlər edilib.

Daha sonra komitə sədri "İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanun layihəsini diqqətə çatdırıb.

Təqdim olunan hər üç qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda cari məsələlərlə bağlı müzakirələr keçirilib. Komitənin sədri Səməd Seyidov, üzvləri Rasim Musabəyov, Elman Nəsirov, Sahib Alıyev, Asim Mollazadə, Nəsib Məhəməliyev beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafı, Azərbaycanın haqq səsinin geniş ictimaiyyətə çatdırılması, dünya miqyasında ölkəmizin mövqeyinin daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyətin genişləndirilməsi və digər aktual məsələlər barədə fikir mübadiləsi aparıblar.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 20 yanvar.- S.4.